# VI BÖLMƏ. TURİZMİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

UOT 338.48

*Vüsal Vüqar oğlu CƏFƏRLİ*
*Bakı Avrasiya Universitetinin doktorantı*
*vusaljafarli@mail.ru*

## AZƏRBAYCANDA MÜALİCƏ TURİZMİNİN İNKİŞAF SƏVİYYƏSİ VƏ PERSPEKTİVLƏRİ

*Xülasə*

**Tədqiqtın məqsədi** pandemiyadan əvvəlki dövrdə Azərbaycanda müalicə turizminin inkişaf səviyyəsinin kompleks təhlili əsasında onun inkişafı istqamətlərinin əsaslandırılmasından ibarətdir.

**Tədqiqatın metodologiyası.**Tədqiqat işində məntiqi ümumiləşdirmə, sistemli yanaşma, təhlil və sintez, eləcə də riyazi-statistika metodlarından istifadə olunmuşdur.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti** ölkədə turizm sənayesinin birxətli inkişafı meyillərindən yayınaraq,daxili potensial imkanlara və şəraitə uyğun olan bütün istiqamətlərdə inkişafı zəruriliyinin əsaslandırılması ilə bağlıdır.Bu baxımdan tədqiqatın predmetinə uyğun olaraq, müalicə turizmi ilə bağlı araşdırmalar ön plana çəkilir.

**Tədqiqatın nəticələri.** Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkəmizdə müalicə turizminin inkişafı arzuolunan səviyyədə deyil. Bununla yanaşı mövcud potensialdan istifadə əsasında turizmin inkişafı ilə bağlı hədəflərə nail olunması bu sahədəki boşluqları aradan qaldıra bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.**Təqdim olunan elmi məqalədə müalicə turizminin mahiyyəti, əhatə etdiyi xidmətlər dəsti və inkişafı amilləri araşdırılmışdır.Araşdırmalar zamanı tanınmış alimlərin elmi-tədqiqat əsərlərinə, qabaqcıl dünya təcrübəsinə, internet məkanında yayımlanan fikir və mülahizələrə istinad olunmuşdur. *Müəyyən olunmuşdur ki, Azərbaycanın müxtəlif bölgələri müalicə xarakterli təbii resurslarla kifayət qədər zəngindir. İşğaldan azad olunmuş* Kəlbəcər rayonundakı İstisu mineral suyu öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə dünyada məşhur olan Karlovı-Varı bulaqlarının eynidir və bəzi xüsusiyyətlərinə görə dünyada yeganədir. Bu baxımdan hər bir regionun müalicə turizmi üçün əhəmiyyət kəsb edən təbii-iqtisadi potensialı aşkar olunmalı və onlardan səmərəli istifadə edilməlidir.

Təqdim olunan elmi məqalədə Azərbaycanın müxtəlif bölgələrində müalicə turizminin inkişafı amilləri qiymətləndirilmiş, müvafiq təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: müalicə, turizm, sağlamlıq, müayinə, xidmət, rəqabət, qiymət.***

### *Giriş*

İnsanlar yaşadığı ölkənin bölgələrinə və xarici ölkələrə müxtəlif məqsədlərlə səyahət edirlər.Bu məqsədlərdən biri də sağlamlığın bərpası,yəni müalicə məqsədləridir.Müailcə turizmi ilə turistləri cəlb edən ölkələr təbii nemətlərlə yanaşı keyfiyyətli xudmət və münasib qiymət üzrə üstünlük əldə etməlidir. Qabaqcıl texnolgiya, yüksək ixtisaslı tibb heyəti və davamlı marketinq fəaliyyəti belə üstünlüklərin baza amilləridir.Azərbaycan təbiəti müalicə turizminin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Bu imkanlar əsasında turizmin inkişafına nail olunması çağdaş dövrün mühüm vəzifələrindəndir.

Turizmin ölkənin sosial-iqtisadi həyatındakı rolundan əlavə onun dünyadakı siyasi mövqeyinin möhkəmləndirilməsində də çox böyük əhəmiyyəti vardır. Müasir dünya iqtisadiyyatında tutduğu

roluna görə turizm neftçıxarma və maşınqayırma sənayesi ilə rəqabət aparan bir sektora çevrilmişdir. Ayrı-ayrı regionlarda, bütövlükdə ölkədə turizmin inkişaf etdirilməsi bir çox sosial-iqtisadi problemlərin kökündən həll edilməsi üçün əlverişli şərait yaradır. Onun inkişaf etməsi ilə çoxlu sayda yeni iş yerlərinin açılması, kənd əhalisinin şəhərə axınının qarşısının alınması, əhalinin kommunikasiya və mədəni əlaqələrinin artmasında irəliləyişlərə nail olmaq mümkündür.

Turizm inkişaf edən regionlarda mədəniyyətlərarası inteqrasiyanın güclənməsinə də əlverişli şərait yaradır. Dünyada elə bölgələr vardır ki, burada iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək mümkün olmadıqda turizm həmin bölgənin insanlarının məşğulluq problemlərinin həll edilməsi baxımından yeganə bir sahə sayılır. Dünya əhalisinin artması, həyat keyfiyyətinin yüksəlməsi, müxtəlif ölkələrdə səhiyyə xidməti xərclərinin yüksəlməsi səbəbindən insanlar daha keyfiyyətli və ucuz xidmət ala biləcəkləri ölkələrə üz tuturlar. İnkişaf etmiş ölkələrdəki sənayeləşmə və şəhərləşmə nəticəsində ortaya çıxan ətraf mühit problemləri, hava çirkliliyi, stress, mövsüm dəyişiklikləri, iqtisadi böhranla bağlı ağırlaşan iş və həyat şəraiti insanların sağlamlığına mənfi təsir edir. Bu səbəblə də insanlar gözəl təbiəti, iqlimi olan, stress və səs-küydən uzaq yerlərə öz fiziki sağlamlığını bərpa edəcək turistik destinasiyalara gedirlər. Onu qeyd edək ki, müalicə turizmi bir tərəfdən təbii ehtiyatlara, digər tərəfdən bəşəri və maliyyə mənbələrinə söykənən bir turizm növüdür.

**Müalicə turizminin mahiyyəti və inkişafı amilləri.** Müalicə turizmi anlayışı müalicə məqsədilə edilən, müasir kurort-sanatoriya müəssisələri tərəfindən təqdim olunan profilaktik xidmətlərin (spa, sağlamlıq, fitnes mərkəzləri və kompleks müayinə ("çekap") proqramları və s.) geniş spektrini ehtiva edir.

Müalicə-sağlamlıq turizmi bir sıra xidmətləri özündə birləşdirir. Bu xidmətlər aşağıdakılardır:

- kompleks kurort xidmətləri;
- SPA xidmətləri;
- təbii üsullarla sağlamlığın bərpası.

Son 10-15 ildə tibbi və müalicəvi-sağlamlıq turizm çox inkişaf etmiş bir sahəyə çevrilib. Tibbi və müalicə-sağlamlıq turizminin inkişafına səbəb olan amillər aşağıdakılardır:

- müasir tibbi avadanlıqlardan istifadə;
- ixtisaslı kadrların olması;
- xəstəliklərin müalicəsi və əməliyyatların ucuz başa gəlməsi;
- tibbi infrastrukturun yüksək olması;
- müalicə-kurort zonalarının olması və inkişaf etdirilməsi;
- hər hansı bir müalicə sahəsi üzrə ixtisaslaşma.

Bu səbəblərlə yanaşı turizmin digər növləri ilə müqayisədə müalicə turizminin özünəməxsus üstünlükləri vardır. Həmin üstünlüklər aşağıdakılardan ibarətdir:

1. Müalicə turizmi ilin bütün fəsillərində mümkündür;
2. Qalma müddəti uzundur (8-10 gün);
3. Gündəlik turistik xərclər çoxdur[6].

Tibbi turizmin ən məşhur istiqamətləri ABŞ, Macarıstan, Almaniya, İsrail, Türkiyə, Cənubi-Koreya, Hindistan, Tayland, Sinqapur, Filippin, Kuba, Kolumbiya, Kosta Rika, Cənubi Afrika kimi ölkələrdir. Türkiyəyə hər il 300 mindən çox insan müalicə məqsədilə səfər edir. Bu ölkəyə insanlar daha çox plastik-estetik cərrahiyyə əməliyyatları, göz qüsurunun aradan qaldırılması əməliyyatları, dişlərin müalicəsi, açıq ürək cərrahiyyəsi, onkoloji xəstəliklərin müalicəsi məqsədilə səyahət edirlər.

Dünya ölkələrinin tibbi və müalicə-sağlamlıq turizmində ön plana çıxması bir neçə fərqli səbəblərlə bağlıdır. Bu səbəblərə coğrafi və siyasi mövqe üstünlükləri (İordaniya, İran, Malayziya, Braziliya və s.), səhiyyə xidmətlərinin keyfiyyəti və müasir texnoloji avadanlığın olması (Almaniya, ABŞ, Cənubi Koreya), ənənəvi və sağlamlıq turizminə üstünlük verilməsi (Macarıstan termal turizm, Hindistan tibbi turizm və s.), xarici investisiyaların və xaricə təhsil almış həkimlərin üstünlüklərindən istifadə (İordaniya, Hindistan, Malayziya, Braziliya, Malta və s.) daxildir. Bir çox baxımdan üstünlükləri bir arada saxlaması (coğrafi mövqe, turizm ölkəsi olması, sağlamlıqda

qabaqcıl texnologiya, keyfiyyətli səhiyyə xidmətlərinin təklifi, qiymət və s.) tibbi və müalicə-sağlamlıq turizminin inkişafına səbəb olan faktorlardır [12].

2015-ci ildə dünyada müalicə turizmi üzrə üç ölkə liderlik etmişdir: Tailand, Sinqapur və Malayziya. Həmin ildə müalicə turizmindən Tailand 4 mldr. dollar, Sinqapur 1 mlrd. dollar, Malaziya 22 mln. dollar gəlir əldə etmişdir [12]. Bu dövrdə 1mln. 600 min nəfər amerikalı müalicə məqsədilə bütün dünyanı səyahət etmişlər ki, onların da təxminən 600 min nəfəri stomatoloji məqsədlə getmişdir. Hindistanda müalicə turizmi illik 22% artıma malikdir. Xəstəxanalarının JCI, NABH & ISO keyfiyyət standartına malik olması və sığorta şirkətləri ilə xəstəxanalar arasında əlaqə və s. sahənin inkişafına səbəb olan amillər sırasındadır.

Turizm iqtisadiyyata təsir səviyyəsinə görə sektorlar arasında üstünlüyə malik olmasına baxmayaraq, Azərbaycanda onun imkanlarından istifadə edilməsi lazımi səviyyədə deyil. 2015-ci il Dünya iqtisadi forumunun müqayisəli hesabatında Azərbaycan turizmin və hava nəqliyyatı infrastrukturunun inkişaf səviyyəsinə görə 84-cü, qiymət rəqabəti göstəricisinə görə 65-ci, turistlərə göstərilən servis infrastrukturunun səviyyəsinə görə isə 93-cü yerdə olmuşdur [7]. Turizmdən gələn gəlir Azərbaycan iqtisadiyyatının 4,5%-ni təşkil edir. Müalicə məqsədilə ölkəyə gələn xarici vətəndaşların sayı isə 46.3 min nəfər, yəni ümumi gəlmə turizmin 2.1 %-ni təşkil edir. Bu isə potensial baxımından 1500-dən artıq mineral və termal su mənbələrinə,dörd palçıq vulkanına və bir əsas müalicəvi neft mənbəyinə malik ölkə üçün aşağı göstəricidir. Bütün bunlar turizmin formalaşması, tənzimlənməsi və stimullaşdırılması, turizm növlərinin, xüsusilə də müalicə turizmi üzrə elmi cəhətdən əsaslandırılmış tədqiqatların aparılmasının vacib olduğunu göstərir.

Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. Ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar turizmin inkişafına mühüm təsir etmişdir. Turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı ilbəil artmaqla davam etmiş, onların fəaliyyəti genişlənmişdir.2018-ci ildə müəssisələr tərəfindən əhaliyə 44820,3 min manat dəyərində 66233 turizm yollayış blankı satılmışdır. Blankların 6990-ı ölkə daxilində, 54900-u isə ölkədən kənarda, Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına isə 4343-ü satılmışdır. 2018-ci ildə 218 turizm müəssisəsi 31107,1 min manat gəlir əldə etmiş, turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi isə 2204,0 mln. manat olmuşdur.

***Cədvəl 1***

***Azərbaycanda turizm sektorunun əsas göstəriciləri***

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Səyahət agentlikləri və turoperatorların sayı, vahid | 218 | 243 | 272 | 339 | 374 | 432 |
| İşçilərin sayı, nəfər | 1794 | 1586 | 1838 | 1891 | 2074 | 2205 |
| Səyahət agentlikləri və turoperatorların əldə etdikləri gəlir, mln. manat | 31,1 | 36,5 | 36,8 | 41,0 | 56,4 | 63,4 |
| Məhsul (xidmət) istehsalına çəkilən xərclər, mln. manat | 27,0 | 30,8 | 29,1 | 36,7 | 46,1 | 50,4 |
| Satılmış turizm göndərişlərinin sayı, ədəd dəyəri, mln. manat | 66233 44,8 | 44615 33,5 | 36978 33,5 | 44066 54,6 | 49992 66,6 | 63885 78,1 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyər, milyon manat | | | | | | 3 704,9 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, % | | | | | | 4,5 |
| Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, mln. manat | | | | | | 133,7 |
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | | | | | | 58 172 |

***Mənbə:*** *https://www,stat,gov,az/source/tourism/*

*Azərbaycanın müxtəlif bölgələrində müalicə xarakterli təbii resursları (mineral sular, müalicəvi palçıq və neft, duz mağaraları) ölkəmizi kurort diyarı adlandırmağa imkan verir.* Müalicə turizmi üçün Kəlbəcər rayonundakı İstisu mineral su bulağı təbiətin bizə bəxş etdiyi gözəl hədiyyəsi idi.Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bu sular dünyada məşhur olan Karlovı-Varı bulaqlarının (Çexiya) eynidir və bəzi xüsusiyyətlərinə görə dünyada yeganədir. O zamanın ən görkəmli kimyaçı alimi E.E.Karstenski Kəlbəcər ərazisindəki mineral suları yoxladıqdan sonra İsti-

suyun müalicəvi əhəmiyyətini daha yüksək (hətta Karlovı-Varıdan da yüksək) qiymətləndirmiş və bu müalicə ocağının təkcə Azərbaycana deyi, dünyaya şöhrət gətirəcək bir mənbə olduğunu göstərmişdir [10]. Sovet dövründə daha çox turistlər gələn məkanımız Şuşa idi. Şuşaya 20-30 mindən çox turist gəlirdi, şəhərdə təxminən 250 yerlik iki sanatoriya var idi. 90-cı illərin əvvəllərində məlum hadisələrlə əlaqədar olaraq, ölkəmiz üçün potensial mineral su mənbələri də itirildi, halbuki həmin İstisu üçün SSRİ məkanından milyonlarla turist, həmçinin yerli sakinlər müalicə üçün gəlirdi.

*Naftalanda “Chinar Hotel & SPA” tibbi-müalicə mərkəzi, Naxçıvanda Duzdağ, Qəbələdə Yengicə, Masallıda İstisu kurortları, Galaalti Hotel & Spanın yerli müalicəvi kurort mərkəzlərindən beynəlxalq müalicəvi mərkəzlərə çevrilmələri üçün böyük potensiala malikdirlər. Müalicə t*urizmi üçün yüksək şərait Naxçıvan, Lerik, Lənkəran, Masallı, Naftalan və Astara kimi regionların payına düşür. Naxçıvanda 250-dən çox mineral su mənbələri mövcuddur ki, bu suların hər biri süfrə suyu kimi istehsal olunur. Bu sulara Sirab, Badamlı və Vayxur kimi suları, Lənkəran və Astara bölgələrində isə 100-dən çox termal su mənbələri mövcuddur ki, bu sulara da İstisu, Daşvənd, Qəriblər kimi suları misal göstərmək olar. Gədəbəyin mineral suları Şimali Qafqaz bölgəsində də var. Amma kompleks turizm xidmətləri göstərilmədiyindən oradakı mineral sulardan istifadə edənlərin sayı olduqca azdır. Naxçıvanda böyrək daşlarının müalicəsi üçün sular var. Bu suyun dörd növ böyrək daşını salması elmi cəhətdən təsdiqini tapıb. Onu da deyək ki, xarici ölkələrin heç birində belə tərkibdə mineral su yoxdur. Azərbaycandakı radonlu və kükürdlü suların (Lənkəran-Astara iqtisadi rayonu) analoqunu xarici ölkələrdə az-az tapmaq mümkündür. Daxili orqanların müalicəsində möcüzəli rola malik olan dəmirli sular haqqında da eyni fikirləri söyləmək mümkündür. Dəmirli sular qaraciyər üçün faydalıdır.Mədə-bağırsaq xəstəliklərinin müalicəsində, iltihabyaradıcı amillərin aradan qaldırılmasında karbonlu sulardan (Masallı) istifadə etmək olar. Əfsuslar olsun ki, əhalinin böyük hissəsi müalicə prosesində onlardan yararlana bilmir.

Ölkə sakinlərinin böyük əksəriyyəti təbiətin nemətlərindən istədiyi kimi faydalana bilmir. Çünki müalicə turizmi gec gəlir gətirən sahədir. Sahibkarlar səbirlə gəlir gətirəcək illəri gözləməlidir. İstirahət və əyləncə mərkəzlərində isə fərqlidir: biznes başlanan ildən etibarən gəlir gətirir.

Respublikamızda müalicə turizminin inkişafına mane olan amillər arasında texnologiyanın baha olması, səhiyyə xidmətlərinin keyfiyyətinin aşağı, qiymətlərin isə yüksək olması, nəqliyyat problemləri üstünlük təşkil edir. Göstərilə bilər ki, Avropadan Gəncə şəhərinə aviareysin olmaması səbəbindən Naftalana müalicəyə gəlmək istəyən turist 10-15 saat vaxt itkisinə məruz qalır. Önəmli cəhətlərdən biri də odur ki, müalicə-sağlamlıq turizmi ən məsrəfli turizm növlərindən biridir. Müalicə turpaketinin dəyəri ölkə üzrə orta turpaketlə müqayisədə 8-10% bahadır.

Statistik göstəricilərdən məlum olur ki, müalicə məqsədilə gələn bir turist ölkəmizdə müalicə olunmaq üçün orta hesabla 332 manat xərcləyir. Lakin turşirkətlərin verdiyi məlumata görə isə mualicə turlarının qiyməti 7 gecə 8 gün üçün 980-1100 manatdır. Mövsüm olmayan qış aylarında isə 500-700 manat arasında dəyişir.

Yerli vətəndaşların bir qismi Şimali Qafqaz, Gürcüstan və ya Ukraynada, daha yaxşı imkanları olanlar isə Çexiya, İsrail və Almaniyada müalicəyə üstünlük verir. Bu ölkələr müalicə turizmi sahəsində böyük uğurlar əldə ediblər və yaxşı pul qazanırlar. Bu ölkələr Azərbaycanın bu sahədə ən güclü rəqibləridir. Onu da deyək ki, müalicə mərkəzlərindəki qiymətlər də müştərilərin cəlb olunmasında böyük rol oynayır. Azərbaycanın mineral suları Şimali Qafqazdakı müalicə sularının bənzəridir. Bu bölgədə üçulduzlu oteldə 21 günlük turun qiyməti 1500 manat, Ukraynada 1300-

1800 manat, Çexiyada 2000 manat, Naftalanda 2000-3000 manat, Naxçıvanda isə 1500-2000 manatdan başlayır. Dövlət tabeliyində olan "Bilgəh", "Abşeron", "Günəşli", "Qaranquş" sanatoriyalarında müalicə kursu 18 gündür. Bu sanatoriyalarda xidmətlərin dərəcəsindən asılı olaraq paketlər 570-1020 manat civarındadır. Rəqəmlərdən göründüyü kimi, dövlət tabeliyindəki müəssisələrdə müalicə turizmi daha ucuzdur. Belə ki, özəl sanatoriyalarda 1 günlük müalicə kursu 100-157 manat, dövlət sanatoriyalarında isə 33-56 manat arasındadır. Dövlət sanatoriyalarına göndərişləri dövlət müəssisə və təşkilatları verir ki, məbləğin 15 faizini fiziki şəxslər, 85 faizini isə dövlət müəssisələri ödəyirlər. Bilgəh, Günəşli və Qaranquş mehmanxanaları 444, Abşeron isə 387 nəfərlik yerdir.Təəssüf ki, bu mərkəzlərdə əlavə turizm xidmətləri göstərilmir. Belə ki, müalicə-kurort müəssisələri müstəqillik illərində də istiqamətlərini dəyişmədilər. Halbuki xarici ölkələrin müalicə müəssisələrində digər turizm xidmətləri də göstərilir. Müalicə turizmi inkişaf edən ölkələrdə xidmətlər dəstinə ən populyar turizm xidmətləri (ekskursiya, əyləncə xidmətləri və s.) daxildir. Şübhəsiz ki, rentabelliyi saxlamaq və daha çox gəlir götürmək üçün əlavə xidmətlərin göstərilməsi vacibdir.

Planetimizdə yeganə yatağı olan Azərbaycandan Çexiya, Xorvatiya və Ukraynaya aparılsa da on doqquz xəstəliyə dərman olan Naftalan neftinin mənbəyində təsiri üçqat böyükdür, çünki məhsulun 5-6 saatdan sonra keyfiyyəti dəyişir, təsiri azalır.Goranboy rayonu ərazisində yerləşən Naftalan istirahət və müalicə sanatoriyası hər il minlərlə insanları qəbul etmək şəraitinə malikdir. Təkcə 2018-ci ildə Naftalana dünyanın bir çox ölkələrindən, o cümlədən Rusiya Federasiyası, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Kanada, İsrail, Polşa, Fransa, İspaniya, İtaliya, Yaponiya, Çin, Dominikan, Birləşmiş Ərəb Əmirliyi və digər ölkələrdən, ümumilikdə 3000 nəfər xarici turist gəlmişdir. Naftalanda fəaliyyət göstərən turizm obyektlərində gün ərzində 2000 qonağın qarşılanması, onlara yüksək səviyyədə xidmətlərin göstərilməsi mümkündür.

Onu da qeyd etmək olar ki, ölkəmizdəki özəl sanatoriyalarda çoxsaylı turizm xidmətləri göstərilsə də qiymətlər münasib deyil. Məsələn, Qəbələdəki özəl müalicə müəssisəsində birgünlük seans 70 manat, Naftalanda isə 90 manatdır. 21 günlük müalicə kursu keçmək üçün bir nəfər 1654-5581 manat arasında pul xərcləməlidir. Sözsüz ki, bu məbləğ orta təbəqə üçün çox bahadır. Turizm sahəsində xidmətlər elə təşkil edilməli, qiymətlər elə təyin edilməlidir ki, bundan istifadə edənlərin sayı çox olsun. Məsələn, Türkiyə Respublikasında xarici turistləri cəlb edən amillər arasında ucuz və keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi əsas yer tutur.

Mineral suların süfrə suyu kimi istifadəsi regionlarda bu suların istehsalı üzrə müəssisələrin yaradılmasına və sahibkarlığın inkişafına xüsusi təkan verir ki, bu da mineral suların regionlarda müalicə turizminin inkişafı ilə yanaşı iqtisadi əhəmiyyətliliyini də artırmış olur. Müalicə sularının iqtisadi səmərəlilyi aşağıdakı kimi izah oluna bilər:

- müalicəvi mineral suların hasil olunaraq, qablaşdırılaraq süfrə suyu kimi istehlakçılara təklif olunması;
- bir çox xəstəliklərin müalicəsi məqsədilə mineral və termal sulardan istifadə etməklə kompleks kurort və SPA xidmətlərinin təşkili.

Müalicəvi süfrə sularının rentabelliyinin müəyyən olunmasında onların gündəlik debiti, yerləşdiyi ərazidə infrastrukturun inkişaf səviyyəsi, mənimsənilmə imkanları nəzərə alınır.Ölkədə müalicə turizmindən istifadənin potensial imkanlarının göstəricisi olan sanatoriya-kurort, istirahət evləri və istirahət bazalarının ölkə üzrə sayı 2015-ci ilin statistik məlumatlarına görə bu mərkəzdə çarpayıların sayı 10004-dür. Müalicədən istifadə edən hər bir turistin orta müalicə müddətinin 18-20 gün civarında dəyişməsini nəzərə alsaq və istifadə günlərini 50 faiz həcmində (yəni 182,5 gün) götürsək, o zaman müalicə turizmi üçün gələn turistlərin ortalama sayı 96091 nəfər dəyərləndirilir. Yəni, optimal turist sayı = (çarpayı sayı * ilin 50 faiz günləri) orta qalma günləri və ya (10004 * 182,5)/ ((18+20)/2) = 96091. Bu bizə onu deməyə əsas verir ki, adı çəkilən turizm növünün inkişafdan geri qalması ölkədə ÜDM-də hər il milyonlarla vəsaitin itkisinə gətirib çıxarır.

Bu xidmətlərin rentabelliyinin Azərbaycanda pullu xidmətlər məcmuəsində əhaliyə göstərilən pullu xidmətlərin strukturundakı məlumatlardan istifadə edərkən mövcud statistik məlumatları "E-views" tətbiqi proqram paketində emal etsək aşağıdakı xətti loqarifmik reqressiya tənliyini alacağıq.

*Cədvəl 2*

***2013-2018-ci illərin müalicə turizmi üzrə statistik məlumat***

| İllər | Gəlmə turizmdə müalicə turizminin payı – MMG, min nəfər. | Sanatoriya-kurort müəssisələrində göstərilən pullu xidmətlər - SKMGPX, mln. manat |
|---|---|---|
| 2013 | 11,1 | 49496,6 |
| 2014 | 14,1 | 54124,0 |
| 2015 | 33,3 | 63988,5 |
| 2016 | 43,0 | 72792,5 |
| 2017 | 46,2 | 81891,7 |
| 2018 | 46,3 | 86302,2 |

$$\log(SKMGPX) = 9.99701642199+0.3333559342982*\log(MMG), \quad (1)$$

Loqarifmik reqressiya tənliyi əsasında deyə bilərik ki, müalicə turizmi məqsədi ilə gələn turistlərin sayının 1% artması sanatoriya-kurort müəssisələrində göstərilən pullu xidmətlərin dəyərini 0,33% artıra bilər.Bindan əlavə müalicə turizmi gələnlərin sayının  min nəfər artması sanatoriya-kurort müəssisələrinə göstərilən pullu xidmətlərin həcmində 887,98 min manat  artıma səbəb olacaq.

2015-2016-cı illərdə ölkədə baş verən devalvasiya bütün sektorlara təsir etdiyi kimi turizm sektoruna da təsir etdi. Azərbaycan turisti üçün xarici turizmin qiyməti baha olduğundan yerli turistlərin ölkə daxilində istirahətinə tələb artdı. Ölkəmizin xarici turistlər üçün qiymət baxımından cəlbedici olması  xarici turistlərin cəlb edilməsinə və  həm də yerli əhalinin daxildə istirahəti daxili turizmin inkişafına təkan verməklə, ölkədə yeni iş yerlərinin açılmasına, gəlirin xaricə deyil, ölkəmizdə qalmasına şərait yaratdı.

Bütün bu müsbət meyillərlə yanaşı, ölkə iqtisadiyyatının inkişafında turizmin, eləcə də müalicə-sağlamlıq turizminin rolunun azalmasına olduqca mənfi bir təmayül kimi baxılmalıdır. Burada sırf iqtisadi təsir effekti ilə yanaşı problemin sosial aspektləri də diqqətə alınmalıdır. Bu, nadir turizm növlərindən biridir ki, sərt şəkildə yay mövsümünə bağlı deyil. Elə buna görə də kurortların yüklənməsində və yerli əhalinin məşğulluğunun təmin olunmasında müsbət rol oynaya bilər.

## *Nəticə*

Tədqiqat nəticəsində gəldiyimiz mülahizə bundan ibarətdir ki, respublikamızda ixtisaslaşmış müalicə turizmini inkişaf etdirmək üçün xeyli miqdarda dövlət və özəl investisiyalar sərf olunmalıdır.Eyni zamanda müasir  keyfiyyət standartına malik xəstəxanalar yaradılmalı, xaricdə təhsil almış həkimlərin sayı artırılmalı, genişmiqyaslı reklam işi təşkil edilməlidir. Qeyd etdiklərimizə nail olunması üçün aşağıdakı tədbirlərin görülməsi vacibdir:

1. Turizm sektorunda, xüsusilə də respublikamızın müalicə turizmində üstünlük əldə etməsi üçün marketinq tədqiqatlarına ehtiyac vardır;

2. Avropa-Gəncə, Avropa-Naxçıvan, Avropa-Lənkəran aviareyslərinin açılması müalicə turizminin inkişafına təkan verə bilər;

3. Müalicə turizmində digər potensial bölgələrimizin aşkarlanması üçün ciddi elmi-tədqiqatların aparılması vacibdir.

## ƏDƏBİYYAT

1. A.A.Hüseyn.Turizmin inkişafı: dünya praktikası və Azərbaycan reallıqları. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal, №2 2015.
2. A.A.Hüseyn. Turizm potensialından istifadənin nəzəri əsasları. AMEA İqtisadiyyat Xəbərləri, №6 2015.
3. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev."Ekoloji turizm".Adiloğlu, Bakı 2011
4. Hikmet Haberal."Turizmdə Alternatif: Ekolojik Turizm, Doğa Turizmi, Yayla Turizmi". Detay Yayıncılık, 2015
5. Reducing Barriers to Economic Growth and Job Creation. The Travel & Tourism Competitiveness Report. The World Economic Forum. 2015.
6. David A.Fennell. "Ecotourism", 2017
7. Azərbaycanda turizm. Statistik məcmuə 2020
8. https://www.stat.gov.az/source/tourism/
9. http://chinarhotel.com/site.html
10. www.virtualkarabakh.az/read.php?lang=1&menu=32&id=79#.VxB
11. http://citytv.az/proza/cityplus/1915-dunyada-tibbi-ve-mualicevi-saglamliq-turizimin-inkishaf-dinamikasi.html
12. http://www.medicaltourismassociation.com/en/research-and-surveys.html
13. www.hungary.com

***Вусал Вугар оглы Джафарлы***
***докторант Бакинского Евразийского Университета***

**Уровень развития и перспективы медицинского туризма в Азербайджане**

***Резюме***

**Целью исследования** является обоснование направления развития медицинского туризма на основе комплексного анализа уровня в Азербайджане в предпандемический период.

**Методология исследования.** В работе были использованы методы логического обобщения, системного подхода, анализа и синтеза, а также математико-статистические методы.

**Прикладное значение исследования** заключается в обосновании необходимости развития туристической индустрии в стране по всем направлениям в соответствии с внутренним потенциалом и условиями, избегая тенденций одностороннего развития.

**Результаты исследования.** В результате исследования выяснилось, что развитие медицинского туризма в нашей стране находится не на желаемом уровне. В то же время достижение целей развития туризма на основе использования существующего потенциала может закрыть пробелы в этой области.

**Оригинальность и научная новизна исследования** В представленной научной статье исследуется сущность медицинского туризма, набор услуг и факторы развития. Было установлено, что природные ресурсы лечебного характера довольно богаты в разных регионах Азербайджана.Определено, что минеральная вода Истису в освобожденном Кельбаджарском районе не уступает всемирно известным Карловарским источникам по своему химическому составу и физическим свойствам, а в некоторых отношениях является уникальной в мире. В связи с этим необходимо определить и эффективно использовать природный и экономический потенциал каждого региона, который важен для медицинского туризма.

В представленной научной статье дана оценка факторов развития медицинского туризма в различных регионах Азербайджана, даны соответствующие предложения и рекомендации.

***Ключевые слова: лечение, туризм, здоровье, обследование, услуга, конкуренция, цена.***

*Vusal Vugar Jafarli*
*doctoral student at Baku Eurasian University*

**Development level and prospects of medical tourism in Azerbaijan**

***Summary***

**The aim of the study** is to substantiate the direction of development of medical tourism based on a comprehensive analysis of the level in Azerbaijan in the pre-pandemic period.

**Research methodology.** The work used the methods of logical generalization, systems approach, analysis and synthesis, as well as mathematical and statistical methods.

**The applied value of the study** is to substantiate the need for the development of the tourism industry in the country in all directions in accordance with the internal potential and conditions, avoiding tendencies of one-sided development.

**Research results.** As a result of the study, it turned out that the development of medical tourism in our country is not at the desired level. At the same time, achieving tourism development goals by leveraging existing potential can close the gaps in this area.

**Originality and scientific novelty of the research** The presented scientific article examines the essence of medical tourism, a set of services and development factors. It was found that natural resources of a medicinal nature are quite rich in different regions of Azerbaijan.It was determined that the Istisu mineral water in the liberated Kelbajar region is not inferior to the world famous Karlovy Vary springs in its chemical composition and physical properties, and in some respects is unique in the world. In this regard, it is necessary to determine and effectively use the natural and economic potential of each region, which is important for medical tourism.

The presented scientific article assesses the factors of the development of medical tourism in various regions of Azerbaijan, gives relevant proposals and recommendations.

***Key words: treatment, tourism, health, examination, service, competition, price.***